TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

TƏHSİL, MƏDƏNİYYƏT, SOSİAL VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSİYASI

12-Cİ İCLAS

16 MAY 2025-Cİ İL

Onlayn

TÖVSİYƏ QƏRARI

TÜRKPA üzv dövlətlərində təhsil sahəsində proseslərin uyğunlaşdırılması:problemlər və inkişaf perspektivləri

Parlament Assambleyası,

Təhsil sahəsinin hər bir ölkədə güclü, dinc və davamlı inkişafın əsası olduğunu ***nəzərə alaraq;***

"Türk Dünyasına Baxış – 2040" strateji sənədinin və onun təhsil ilə əlaqədar əsas vəzifə və məqsədlərinin TÜRKPA üzv dövlətlərinin təhsil sahəsində əməkdaşlığı istiqamətində əsas yol xəritəsi rolunu oynadığını ***vurğulayaraq***;

TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində inteqrasiya və əməkdaşlığın ən mühüm və zəruri proseslərdən biri olduğunu ***anlayaraq***;

TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində əməkdaşlıq çərçivəsində əldə edilmiş nəticələri ***müsbət qiymətləndirərək***;

Üzv dövlətlər arasında təhsil sahəsində əməkdaşlığın gücləndirilməsində, təhsil sistemlərinin keyfiyyətinin artırılmasında, onların davamlılığının və müasir tələblərə uyğunluğunun təmin edilməsində əməkdaşlığın əsas rolunu ***nəzərə alaraq***;

TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində qanunların və hüquqi çərçivələrin uyğunlaşdırılması sahəsində əməkdaşlığa dair problemlərin və perspektivlərin müzakirəsinin zəruriliyini ***dərk edərək***;

TÜRKPA üzv dövlətlərinin təhsil sistemlərinin uyğunlaşdırılması məqsədilə ortaq təhsil standartlar və kurikulumların hazırlanmasının xüsusi əhəmiyyətini ***təsdiq edərək;***

Əldə edilmiş bir sıra nailiyyətlərə baxmayaraq, TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində əməkdaşlığın problemlər və çətinliklərlə üzləşdiyini ***qeyd edərək***;

Bütün TÜRKPA üzv dövlətlərində bütün fərdlərin, o cümlədən əlverişli şəraitdən məhrum qrupların təhsil hüququndan bərabər istifadəsini təmin edən inklüziv təhsil yanaşmalarının işlənib hazırlanması və tətbiqinin vacibliyini ***dərk edərək;***

TÜRKPA üzv dövlətlərində təhsil işçilərinin təhsilin təmin edilməsində və gənc nəslin gələcəyinin formalaşmasında əvəzsiz rolunu ***yüksək qiymətləndirərək***;

TÜRKPA üzv dövlətlərinin parlamentlərinə tövsiyə edir:

a) *TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində qanunvericiliyin və hüquqi şərtlərin uyğunlaşdırılması*;
b) *TÜRKPA üzv dövlətlərinin təhsil sahəsində əməkdaşlığının əsas yol xəritəsi kimi "Türk Dünyasına Baxış – 2040" strateji sənədinin əsas vəzifə və məqsədlərinin qəbul edilməsi;*
c) *TÜRKPA üzv dövlətləri arasında əməkdaşlığı təkmilləşdirmək və birliyə nail olmaq məqsədilə yeni imkanlar açan inkişafa davam edərək, təhsil sahəsində əməkdaşlığın fəal şəkildə gücləndirilməsi*;
d) *TÜRKPA üzv dövlətləri arasında akademik əməkdaşlığın gücləndirilməsi və ortaq təhsil müəssisələrinin və proqramların yaradılması*;
e) *TÜRKPA üzv dövlətləri arasında təhsil mühitini yaxşılaşdırmaq və ölkələr arasında mədəni və elmi əlaqələri gücləndirmək məqsədilə rəqəmsal təhsil və dil mübadiləsinin inkişaf etdirilməsi*;
f) *TÜRKPA üzv dövlətlərində təhsilin keyfiyyətinin və əlçatanlığının yaxşılaşdırılmasına yönəlmiş ortaq layihə və proqramların dəstəklənməsi*;
g) *Təhsil islahatlarının fəal şəkildə həyata keçirilməsi, infrastruktura investisiya qoyuluşu, təhsil proseslərinə innovasiyaların tətbiqi ilə tələbələr və müəllimlər üçün şəraitin yaxşılaşdırılması istiqamətində səylərin göstərilməsi;*

h) Təhsil işçilərinə əmək funksiyalarının icrası üçün müvafiq şəraitin və tələblərin yaradılması;

i) TÜRKPA üzv dövlətlərinin təhsil işçiləri, o cümlədən təhsil müəssisələrinin müəllimləri üçün yüksək keyfiyyətli təcrübə mübadiləsinin və təlim sistemlərinin yaradılması.